## "İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqram"ın təsdiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin aidiyyəti orqanlarla razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqram" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə

Bakı şəhəri, 06 fevral 2014-cü il
№ 37

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2014-cü il 6
fevral
tarixli 37 nömrəli qərarı ilə
təsdiq edilmişdir

# İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqram

## 1. Giriş

"İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqram" (bundan sonra — Proqram) insan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

"Uşaq hüquqları haqqında" BMT Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültativ Protokoluna qoşulmaq barəsində" Azərbaycan Respublikasının 2002-ci il 2 aprel tarixli 285-IIQ nömrəli Qanunu ilə qoşulduğu "Uşaq hüquqları haqqında" BMT Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültativ Protokolu"nun 8-ci maddəsinə əsasən insan alverinə məruz qalmış uşağın reabilitasiyası və reinteqrasiyası zamanı onun nəinki ilkin, eyni zamanda gələcək ehtiyacları nəzərə alınmalıdır. Həmin uşaqların sosial-psixoloji reabilitasiyasına sığınacaqdan və yardım mərkəzindən çıxandan sonra da fərdi plan əsasında nəzarət edilməlidir.

Azərbaycan Respublikasında insan alverinin qurbanı olmuş uşaqların hüquqlarının bərpası, onların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası mövcud qanunvericilik əsasında həyata keçirilir. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2005-ci il 28 iyun tarixli 958-IIQ nömrəli Qanununda və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 6 mart tarixli 62 nömrəli qərarı ilə təsdiq edilmiş "İnsan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları"nda bu fəaliyyətin əsas prinsip və mexanizmləri müəyyən edilmişdir.

İnsan alveri qurbanlarının sosial reabilitasiyası həyata keçirilərkən insan alveri qurbanlarının, xüsusilə uşaqların yaşı, cinsi və tələbatları, o cümlədən zəruri sığınacaq, təhsil və qayğıya olan ehtiyacları nəzərə alınır. İnsan alverinin qurbanı olmuş uşağa yardım göstərilərkən onun mənafeləri üstün tutulmalıdır. Onlara göstərilən xidmətlərin keyfiyyəti yardım mərkəzlərində işləyən əməkdaşların işə qəbulunda və işlədiyi dövrdə xüsusi hazırlığının olmasından və peşəkarlığının artırılması istiqamətində mütəmadi tədbirlərin görülməsindən asılıdır.

İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyasının həyata keçirilməsi məqsədi ilə yardım mərkəzləri tərəfindən fərdi sosial reabilitasiya planı tərtib edilir. İnsan alverinin qurbanı olmuş uşaqlar üçün fərdi sosial reabilitasiya planlarının tərtib edilməsi "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının 2005-ci il 24 may tarixli 919-IIQ nömrəli Qanununun müddəaları nəzərə alınmaqla həyata keçirilir.

İnsan alverinin qurbanı olmuş uşaqlar sığınacaqdan çıxdıqdan sonra profilaktik və reabilitasiya tədbirlərinin davam etdirilməsi və onların təhlükəsizliyinin qorunması həmin uşaqların sağlam şəkildə cəmiyyətə reinteqrasiya olunması üçün vacibdir.

Uşaq hüquqlarının müdafiəsi çərçivəsində insan alverinə məruz qalmış uşaqların reabilitasiyası və cəmiyyətə reinteqrasiyası proseslərində boşluqların müəyyən edilməsi və bu sahədə görülən tədbirlərin təkmilləşdirilməsi ölkəmizdə aktual məsələlərdəndir.

## 2. Proqramın məqsədi

Bu Proqramın əsas məqsədləri insan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası sahəsində mexanizmlərin təkmilləşdirilməsi, insan alverinin qurbanı olmuş uşaqların və potensial qurbanların hüquqlarının müdafiəsində effektivliyin artırılması üçün tədbirlərin gücləndirilməsi, bu sahədə göstərilən xidmətlərin keyfiyyətinin artırılması və beynəlxalq təcrübənin öyrənilməsidir.

## 3. Proqramın maliyyələşdirilməsi

Bu Proqramın icrası üçün tələb olunan xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı orqanlar üçün nəzərdə tutulmuş vəsaitlər dairəsində və qanunvericilikdə nəzərdə tutulmuş digər mənbələr hesabına həyata keçirilir.

## 4. İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqramın həyata keçirilməsi ilə bağlı 2014-2016-cı illər üçün Tədbirlər Planı

| **Sıra №-si** | **Tədbirlərin adı** | **İcraçı orqanlar** | **İcra müddəti (illər üzrə)** |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 4.1. Təşkilati və qanunvericilik tədbirləri | | | |
| 4.1.1. | İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası sahəsində qanunvericiliyin təkmilləşdirilməsi məqsədi ilə təkliflərin hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2014-2016 |
| 4.1.2. | İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Xarici İşlər Nazirliyi | 2014-2016 |
| 4.1.3. | İnsan alverinin qurbanı olmuş uşaqlarla işləyən sosial işçilərin, psixoloq və tibb işçilərinin peşəkarlığının artırılması məqsədi ilə təlim proqramlarının təşkil edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| 4.1.4. | İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası sahəsində fəaliyyət göstərən | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Daxili İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə | mütəmadi |

| | | | |
|---|---|---|---|
| | təşkilatlar arasında əlaqələndirmənin və əməkdaşlığın gücləndirilməsi | Dövlət Komitəsi | |
| 4.1.5. | Reinteqrasiya prosesində olan uşaqların vəziyyətini qiymətləndirən monitorinq meyarlarının hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | 2014 |
| 4.2. Sosial, tibbi və digər tədbirlər | | | |
| 4.2.1. | İnsan alverinin qurbanı olmuş uşaqların və onların ailəsinin problemlərinin öyrənilməsi, lazımi dəstəyin göstərilməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| 4.2.2. | İnsan alverinin qurbanı olmuş uşaqların sosial müdafiəsini və məşğulluğunu təmin etmək məqsədi ilə onların ilk peşə-ixtisas təhsili müəssisələrində ödənişsiz təhsil alması və 15 yaşına çatmış uşaqların öz arzusu ilə işlə təmin olunması istiqamətində tədbirlərin görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi | mütəmadi |
| 4.2.3. | İnsan alverinin qurbanı olmuş uşaqların valideynlərinə zəruri psixoloji yardım göstərilməsi və onlara uşaqla davranış qaydalarının aşılanması üzrə təlimlərin keçirilməsi, valideynlərin xüsusi psixoloji proqramlara cəlb edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |
| 4.2.4. | Uşaqların insan alverinin qurbanına çevrilməsi səbəblərinin araşdırılması və onların hüquqlarının yenidən pozulmasının qarşısının alınması məqsədi ilə müvafiq təhlükəsizlik və qabaqlayıcı tədbirlərin görülməsi (preventiv tədbirlər) | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları | mütəmadi |
| 4.3. Maarifləndirmə və profilaktik tədbirlər | | | |
| 4.3.1. | İnsan alverinin qurbanı olmuş uşaqların reabilitasiyası və reinteqrasiyası üzrə yaradılmış | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və | mütəmadi |

| | | | |
|---|---|---|---|
| | imkanlar barədə məlumatların kütləvi informasiya vasitələrində yayılması | Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | |
| 4.3.2. | İctimaiyyətin diqqətini insan alverinin qurbanı olmuş uşaqlara yönəltmək və onların təkrar istismara və ya zorakılığa məruz qalmalarının qarşısını almaq məqsədi ilə maarifləndirmə kampaniyaları keçirmək, sosial çarxlar hazırlamaq | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları, aidiyyəti qeyri-hökumət təşkilatlarını cəlb etməklə | mütəmadi |